## KİNO -TELEVİZİYA VƏ DİGƏR EKRAN SƏNƏTLƏRİ

**UOT 811.111:659.2**
**ORCID: 0009-0005-3975-3645**
**DOI: 10.52094/CAFI9285**

**Mahirə Yaqubova Mehdi qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**dosent,**
**mahira.yagubova@admiu.edu.az**

# MİLLİ DİL NORMALARININ QORUNMASI BAXIMINDAN DUBLYAJIN AKTUAL PROBLEMLƏRİ

**Xülasə:** Məqalədə audiovizual məhsulların lokalizasiyasında (tərcümə olunan mətnin və ya audiovizual məhsulun hədəf dilin normativ qaydaları, mədəni konteksti və kommunikativ ehtiyacları əsasında yenidən qurulması və uyğunlaşdırılması prosesi) mühüm yer tutan dublyaj fəaliyyətinin milli dil normalarının qorunması baxımından aktual problemləri araşdırılır. Qloballaşma və rəqəmsal media mühitinin sürətli inkişafı nəticəsində xarici filmlərin, serialların və animasiya məhsullarının milli auditoriyaya çatdırılmasında dublyajın rolu əhəmiyyətli dərəcədə artmışdır. Lakin bu proses zamanı ədəbi dil normalarının pozulması, leksik-semantik uyğunsuzluqlar, sintaktik sadələşdirmələr, danışıq dili elementlərinin həddindən artıq istifadəsi və terminoloji qeyri-dəqiqliklər müşahidə olunur. Bu tədqiqat işində dublyaj mətnlərinin hazırlanması və səsləndirilməsi mərhələlərində dil mədəniyyətinə təsir edən amillər kompleks şəkildə təhlil edilir. Araşdırmada normativ dilçilik prinsipləri əsasında dublyaj mətnlərinin keyfiyyətinin qiymətləndirilməsi, orijinal mətnlə milli dil arasında semantik və üslubi balansın qorunmasının zəruriliyi əsaslandırılır. Eyni zamanda, gənc tamaşaçı auditoriyası üçün nəzərdə tutulan məhsullarda dublyajın dil tərbiyəsi funksiyası xüsusi vurğulanır. Nəticə hissəsində milli dilin saflığının və funksional imkanlarının qorunması məqsədilə dublyaj sahəsində institusional nəzarətin gücləndirilməsi, terminoloji bazanın təkmilləşdirilməsi və müvafiq metodik tövsiyələrin hazırlanması təklif olunur.

**Açar sözlər.** Dublyaj, audiovizual tərcümə, ekran nitqi, ədəbi dil, terminoloji adekvatlıq, dil mədəniyyəti

**Giriş.** Müasir informasiya cəmiyyətində audiovizual məhsullar kütləvi kommunikasiya vasitələrinin ən təsirli formalarından biri kimi çıxış edir (Nesirli, 2025). Qloballaşma prosesləri, beynəlxalq media mübadiləsi və rəqəmsal platformaların geniş yayılması nəticəsində xarici filmlər, seriallar və animasiya məhsullarının milli auditoriyaya çatdırılması zərurəti artmışdır. Bu kontekstdə, dublyaj yalnız texniki və estetik proses deyil, eyni zamanda, milli dil siyasəti, dil mədəniyyəti və normativ dilçilik prinsiplərinin həyata keçirildiyi mühüm bir sahədir (Kərimova, 2018). Dublyaj vasitəsilə təqdim olunan mətnlər geniş auditoriya üçün dil nümunəsi rolunu oynadığından, burada yol verilən normativ pozuntular milli dilin funksional imkanlarına və ictimai nüfuzuna birbaşa təsir göstərir (Rozhkov & Mamonova, 2019). Tədqiqatın elmi yeniliyi dublyaj fəaliyyətinin milli dil normaları baxımından sistemli şəkildə təhlil olunması, dilçilik meyarlarının audiovizual tərcüməyə tətbiqi və dublyajın dil tərbiyəsi funksiyasının ayrıca elmi problem kimi irəli sürülməsi ilə müəyyən olunur (Spiteri Miggiani, 2021). Məqalədə dublyaj yalnız tərcümə praktikası kimi deyil, həmçinin, dilin normativ inkişafına təsir edən mədəni-kommunikativ mexanizm kimi qiymətləndirilir. Tədqiqatın məqsədi dublyaj prosesində milli dil normalarının pozulmasına səbəb olan amilləri müəyyənləşdirmək və onların aradan qaldırılması yollarını elmi-nəzəri əsaslarla təqdim etməkdir. Araşdırmada təsviri-analitik metod, müqayisəli dilçilik metodu, normativ dilçilik yanaşması və müşahidə üsulundan istifadə olunmuşdur. Müxtəlif janrlı audiovizual məhsulların dublyaj nümunələri əsasında aparılan təhlillər nəticəsində leksik, qrammatik və üslubi uyğunsuzluqlar ümumiləşdirilmiş, əldə olunan nəticələr elmi qənaətlər şəklində təqdim edilmişdir.

**Əsas hissə.** Milli dil normaları dedikdə, ədəbi dilin leksik, fonetik, qrammatik və üslubi qaydalarının məcmusu nəzərdə tutulur (Rozhkov & Mamonova, 2019). Dublyaj prosesində bu normaların qorunması tərcümənin adekvatlığı, nitqin aydınlığı və dilin estetik bütövlüyü baxımından əsas şərt hesab olunur (Spiteri Miggiani, 2021). Dilçilikdə qəbul edilmiş yanaşmaya görə, "ədəbi dil ictimai ünsiyyətin ən sabit və normativ formasıdır", bu baxımdan, dublyaj mətnləri həmin sabitliyin kütləvi informasiya mühitində təzahürü kimi çıxış edir (Hayes, 2022). Dublyaj mətnləri şifahi nitq forması daşıdığı üçün burada intonasiya, vurğu və tələffüz normaları xüsusi əhəmiyyət kəsb edir. Tədqiqatçılar haqlı olaraq belə qeyd edirlər: "ekran dili tamaşaçı üçün eşidilən və mənimsənilən əsas dil nümunəsidir" (Kərimova, 2018). Son araşdırmalar göstərir ki, normativ dilin qorunması yalnız estetik və informasiya funksiyasını

deyil, o cümlədən, milli kimlik və mədəni yaddaşın qorunmasını təmin edir (Nesirli, 2025). Dublyajın ədəbi dil normalarına uyğun hazırlanması tamaşaçıların dil zövqünü formalaşdırır və milli dilin inkişafına töhfə verir.

Mövcud təcrübəyə əsasən vurğulamaq olar ki, dublyaj sahəsində bir sıra sistemli problemlər mövcuddur. Bunlara leksik-semantik uyğunsuzluqlar, yersiz alınma sözlərin və jarqon elementlərinin istifadəsi, sintaktik konstruksiyaların həddindən artıq sadələşdirilməsi daxildir. Dilçilərin fikrincə, "tərcümə mətnində normadan kənar danışıq dili elementlərinin çoxluğu ədəbi dilin nüfuzunu zəiflədir" (Kərimova, 2018). Xüsusilə, gənc auditoriya üçün nəzərdə tutulan məhsullarda bu meyillər dil zövqünün formalaşmasına mənfi təsir göstərir (Nesirli, 2025). Digər mühüm problem terminoloji qeyri-dəqiqlikdir. Elmi yanaşmalarda vurğulandığı kimi, "terminin yanlış seçimi yalnız məzmunu deyil, anlayışın özünü də təhrif edir" (Rozhkov & Mamonova, 2019), bu isə dublyajın informasiya funksiyasını zəiflədir. Araşdırmalar belə bir hipotezi təsdiq edir ki, dublyaj prosesində vaxt məhdudiyyəti, kommersiya maraqları və ədəbi redaktə prosesindəki qeyri-peşəkarlıq bu sahədə keyfiyyət problemlərini artırır.

Dublyajda dil normalarının pozulması bir sıra obyektiv və subyektiv amillərlə bağlıdır (Kərimova, 2018). Əsas səbəblərdən biri tərcüməçilərin və dublyaj mətnini hazırlayan mütəxəssislərin normativ dilçilik üzrə kifayət qədər hazırlığa malik olmamasıdır. Mütəxəssislərin qeyd etdiyi kimi, "peşəkar dil redaktəsi olmayan dublyaj təsadüfi nitq nümunəsinə çevrilir" (Hayes, 2022). Habelə, redaktə mərhələsinin formal xarakter daşıması və dilçi-redaktorların prosesdən kənarda qalması problemləri dərinləşdirir. Zaman məhdudiyyəti və kommersiya maraqlarının üstün tutulması da keyfiyyətin aşağı düşməsinə səbəb olur. Dublyaj aktyorlarının orfoepik və fonetik hazırlığının zəifliyi isə "səslənən mətndə normativ tələffüzün pozulmasına" gətirib çıxarır (Kərimova, 2018). Son illərdə aparılan müşahidələr deməyə əsas verir ki, dublyajın peşəkar idarə olunmaması auditoriyanın dil zövqünü, eləcə də, Azərbaycan dilinin nüfuzunu xeyli zəiflədir.

Ölkəmizin mövcud təcrübəsinə əsasən qeyd etmək olar ki, dublyaj prosesində xarici televiziya məkanında mövcu olan oxşar problemlər müşahidə olunur. Məsələn, kommersiya məqsədli filmlərin dublyajında tez-tez leksik və sintaktik uyğunsuzluqlar rast gəlinir və əksər hallarda uşaqlar üçün nəzərdə tutulmuş məhsullarda ədəbi dil normaları sadələşdirilir. Bundan əlavə, bəzi dublyaj studiyalarında dilçi-redaktorların iştirakının məhdud olması səbəbindən terminoloji və üslubi səhvlər meydana çıxır. Yerli dublyaj aktyorlarının

təcrübəsi və orfoepik hazırlığının kifayət qədər olmaması səsləndirmədə normativ tələffüz pozuntularına səbəb olur ki, bu da, milli dilimizin saflığına mənfi təsir göstərir.

Dublyaj, xüsusilə, uşaq və yeniyetmələr üçün dil tərbiyəsinin formalaşmasında mühüm vasitədir. Televiziya və rəqəmsal platformalar vasitəsilə yayımlanan dublyaj məhsulları gənc auditoriyanın nitq vərdişlərinə, söz ehtiyatına və ifadə tərzinə birbaşa təsir göstərir. Dil tərbiyəsi ilə bağlı araşdırmalarda belə vurğulanır: "uşağın eşitdiyi dil onun danışıq modelinə çevrilir" (Hayes, 2022). Bu baxımdan, dublyajın yalnız əyləndirici deyil, eləcə də, pedaqoji funksiyası mövcuddur. Ədəbi dil normalarına uyğun hazırlanmış dublyaj nümunələri milli dilə hörmət hissini gücləndirir. Mövzu ilə bağlı tədqiqatlarda "keyfiyyətli dublyaj milli dilin gündəlik ünsiyyətdə yaşamasını və inkişafını təmin edən mühüm amillərdən biridir" (Nesirli, 2025) fikri iddia olunur. Əlavə olaraq, dublyajın düzgün hazırlanması gənc auditoriyada dil mədəniyyətinin möhkəmlənməsi və leksik zənginliyin artırılmasına töhfə verir.

Azərbaycan təcrübəsində isə televiziyada yayımlanan uşaqlar üçün nəzərdə tutulmuş xarici filmlərin və animasiyaların dublyajı xüsusilə önəmli rol oynayır. Məsələn, "ARB Uşaq" və "İctimai Televiziya" kanallarında yayımlanan dublyajlı məhsullar ədəbi dil normalarına uyğun səsləndirildiyindən, gənc izləyicilər arasında düzgün nitq vərdişlərinin formalaşmasına xidmət edir. Eyni zamanda, yerli dublyaj studiyaları Azərbaycan dilinin leksik və fonetik xüsusiyyətlərini qorumağa çalışaraq milli dilin qorunması və inkişafına töhfə verir.

**Nəticə.** Araşdırma göstərir ki, dublyaj milli dil normalarının qorunması və təbliği baxımından strateji əhəmiyyətə malik sahədir. Bu sahədə problemlərin aradan qaldırılması üçün aşağıdakı konkret elmi-praktiki təkliflərin həyata keçirilməsi məqsədəuyğun hesab olunur:

1. Dublyaj üçün normativ dil standartlarının təsdiqi. Milli audiovizual məhsulların dublyajında tətbiq olunmaq üçün ədəbi dil normalarını, terminoloji vahidləri, orfoepik qaydaları və üslubi tələbləri əhatə edən vahid normativ sənəd hazırlanmalı və müvafiq qurum tərəfindən təsdiq edilməlidir. Bu sənəd dublyaj studiyaları üçün məcburi metodik əsas rolunu oynamalıdır.

2. Dilçi-redaktorların dublyaj prosesinə institusional şəkildə cəlb edilməsi. Dublyaj mətnlərinin hazırlanması və səsləndirilməsi mərhələlərində peşəkar dilçi-redaktorların iştirakı hüquqi və təşkilati baxımdan təmin olunmalıdır. Bu, leksik, qrammatik və üslubi səhvlərin qarşısının alınmasına,

eyni zamanda dublyajın ümumi dil keyfiyyətinin yüksəldilməsinə xidmət edəcəkdir.

3. Dublyaj sahəsində ixtisaslaşmış kadr hazırlığının təşkili. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və peşə hazırlığı mərkəzlərində "audiovizual tərcümə və dublyaj dili" istiqaməti üzrə ixtisaslaşmış fənn və proqramların, habelə, tədris vəsaitlərinin yaradılması məqsədəuyğundur. Bu mənbələr tərcüməçilər, dublyaj aktyorları və redaktorların normativ dilçilik biliklərini və praktiki bacarıqlarını sistemli şəkildə inkişaf etdirməlidir.

Qeyd olunan təkliflərin həyata keçirilməsi dublyajın dil siyasəti kontekstində elmi əsaslarla tənzimlənməsinə, milli dilin saflığının, funksional imkanlarının və mədəni nüfuzunun qorunmasına mühüm töhfə verə bilər.

## Ədəbiyyat siyahısı

1. Kərimova, İ. (2018). *Keyfiyyətsiz dublyaj ən yaxşı filmləri gözdən salır: Dublyaj filmlərinin Azərbaycan dilinə tərcüməsində və səsləndirilməsində ədəbi dil normalarının pozulması problemləri*. Filologiya məsələləri, (10), 391-398.

2. Hayes, L. (2022). *(Main)streaming English dubs: A snapshot of Netflix's playbook on dubbing strategies.* Journal of Audiovisual Translation, 5(2), 1-20.

3. Nesirli, A. (2025). *Exploring the modalities of audiovisual translation: Focus on dubbing and subtitles*. Porta Universorum Journal, 1(4), 10-25.

4. Rozhkov, R. A., & Mamonova, E. Y. (2019). *Typology of mistakes in audio-visual translation for dubbing*. Philology. Theory & Practice, 12(6), 82-95. https://DOI:10.30853/filnauki.2019.6.82

5. Spiteri Miggiani, G. (2021). *Exploring applied strategies for English-language dubbing.* Journal of Audiovisual Translation, 4(1), 137-156. https://DOI.org/10.47476/jat.v4i1.2021.166

**Mahira Yagubova Mehdi gizi**

## THE ACTUAL PROBLEMS OF DUBBING-IN FROM THE POINT OF PRESERVING LANGUAGE NORMS

**Summary:** The article examines the current problems of dubbing activity – which occupies an important place in the localization of audiovisual products

(the process of reconstructing and adapting a translated text or audiovisual work in accordance with the normative rules of the target language, its cultural context, and communicative needs) – from the perspective of preserving national language norms. As a result of globalization and the rapid development of the digital media environment, the role of dubbing in delivering foreign films, television series, and animated productions to national audiences has increased significantly. However, during this process, violations of literary language norms, lexical-semantic inconsistencies, syntactic simplifications, excessive use of colloquial elements, and terminological inaccuracies are frequently observed. This study provides a comprehensive analysis of the factors influencing language culture at the stages of preparing and voicing dubbing texts. Based on the principles of normative linguistics, the research substantiates the necessity of assessing the quality of dubbing texts and maintaining semantic and stylistic balance between the original text and the national language. At the same time, particular emphasis is placed on the language-educational function of dubbing in audiovisual products intended for young audiences. In the concluding section, the study proposes strengthening institutional oversight in the field of dubbing, involving linguist-editors in the production process, improving the terminological framework of the national language.

**Key words:** dubbing, audiovisual translation, screen speech, literary language, terminological adequacy, language culture.

**Махира Ягубова Мехди кызы**

## Актуальные проблемы дубляжа с точки зрения сохранения норм национального языка

**Резюме:** В статье исследуются актуальные проблемы сохранения норм национального языка в деятельности дубляжа, занимающего важное место в локализации аудиовизуальных продуктов (процесс реконструкции и адаптации переводимого текста или аудиовизуального продукта на основе нормативных правил целевого языка, культурного контекста и коммуникативных потребностей). В условиях глобализации и стремительного развития цифровой медиасреды роль дубляжа в доведении зарубежных фильмов, сериалов и анимационных произведений до национальной аудитории существенно возросла. Однако в ходе данного процесса наблюдаются нарушения норм литературного языка, лексико-семантические несоответствия, синтаксические упрощения, чрезмерное

использование элементов разговорной речи и терминологическая неточность. В данном исследовании комплексно анализируются факторы, оказывающие влияние на культуру языка на этапах подготовки и озвучивания дубляжных текстов. На основе принципов нормативного языкознания обосновывается необходимость оценки качества дубляжных текстов, а также сохранения семантического и стилистического баланса между оригинальным текстом и национальным языком. Одновременно особо подчеркивается воспитательная функция дубляжа в языковом развитии продукции, предназначенной для молодой зрительской аудитории. В заключительной части предлагается усиление институционального контроля в сфере дубляжа, совершенствование терминологической базы и разработка соответствующих методических рекомендаций в целях сохранения чистоты и функциональных возможностей национального языка.

**Ключевые слова:** Дублирование, аудиовизуальный перевод, экранная речь, литературный язык, терминологическая адекватность, языковая культура

**Məqalənin redaksiyaya daxilolma tarixi: 02.02.2026**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.02.2026**